# Şəhidin ruhu incikdir

**Qax rayonu sayca əhalisi az olan bölgələrdən biridir. Ancaq Qarabağ müharibəsində rayonun 170-dək övladı şəhid olmuş, itkin düşmüş, 80 nəfərə qədəri sağlamlığını itirmişdir. Azərbaycanın ən gənc Milli Qəhrəmanı olan Cavanşir Rəhimov da bu rayonun Qaşqaçay kəndinin yetirməsidir.**

Qarabağ müharibəsində igidliyi ilə tanınan, xain düşməndən qisas alan qeyrətli oğullardan biri də Mehdi Bəhram oğlu Ziyadov idi. O, 1964-cü il dekabrın 10-da rayonun qədim Qıpçaq kəndində doğulmuşdu. Hərbi xidmətdən sonra, 1986-cı ildə Bakıda texniki peşə məktəbini bitirib Mingəçevirdə "Kür" istehsal-kommersiya firmasının "Şirvan" icarə mebel sexində usta kimi işə başlamışdı. O, 1992-ci ilin martında Daxili Qoşunların komandanlığının bilavasitə köməyi ilə say-seçmə könüllülərdən təşkil olunan birinci reyd taburuna yazılmış, Bakıda iki ay xüsusi hazırlıq kursunda PDM-in nişançısı peşəsinə yiyələnmişdi. Təlim məşqlərindən sonra tabur Laçına köməyə göndərilmişdi. Oranı məcburiyyət qarşısında, həm də sonuncu tərk edən tabura Goranboy istiqamətinə getmək əmri verilmişdi. Canbaz yüksəkliyinin, qəsəbənin alınmasında, Talış kəndi yaxınlığında düşmənin bir PDM-nin ələ keçirilməsində Mehdi xüsusilə fərqlənmişdi. O, indi PDM komandiri idi, həm adına, həm də igidliyinə görə döyüş yoldaşları ona "Mixaylo" deyirdilər. Uğurlu Goranboy əməliyyatından sonra Mehdi silah yoldaşlarını iyulun 26-da Qıpçağa - toyuna çağırmışdı. Ancaq cəbhədə olduğu iki ay ərzində dörd dəfə möcüzə ilə ölümdən qurtaran Mehdiyə toy qismət olmadı...

1992-ci il iyunun 29-da hərbi hissə Füzuli istiqamətində idi və iyulun 1-də əks-hücuma keçmək əmri almışdı. Bu döyüşdə Mehdi düşmən əsgərlərinin olduğu iki avtomaşını məhv etmiş, hərbi hissənin qruplarından birini mühasirəyə düşmək təhlükəsindən qurtarmışdı. Lakin həlak olan döyüş yoldaşının meyitini götürmək istəyəndə başından aldığı yaradan özü də həlak olmuşdur. Bu faktların hamısı döyüş yoldaşlarının yazdıqlarıdır.

Mehdi 1992-ci il iyulun 3-də Qax şəhərindəki Şəhidlər xiyabanında dəfn olunmuşdur. Vaxtilə işlədiyi Mingəçevir şəhərində də onu unutmamışlar, orada rəmzi məzarı var.

"Azərbaycan", "Xalq qəzeti", "Xalq ordusu", "Aydınlıq", "Zaman", "Səda", "Şəlalə" qəzetlərində Mehdi haqqında yazılar dərc edilmişdir. "Səda" qəzetində dərc olunmuş ilk yazının müəllifi isə Milli Məclisin indiki deputatı Aydın Mirzəzadə idi.

Mehdinin olduğu hərbi hissənin komandiri onun Milli Qəhrəman adına layiq görülməsi barədə Müdafiə Nazirliyinə təqdimat vermişdi. Lakin nazirliyin Təltif Komissiyası Mehdi Ziyadovu 2010-cu ildə, ölümündən 18 il sonra (!) "Hərbi xidmətlərə görə" medalına təqdim etmişdir.

Mən Qax rayonu haqqında ensiklopedik məlumat kitabı üzərində işləyərkən Mehdi Ziyadovun cəmi iki ay çəkən döyüş yolu barədə məlumatlarla tanışlıqdan sonra müdafiə naziri general-polkovnik Zakir Həsənova məktubla müraciət etdim. **Bilmək istəyirdim ki, cəbhədə olduğu çox az müddətdə düşmənin bir PDM-ni, 40-dək canlı qüvvəsini məhv etmiş, qrupu mühasirəyə düşmək təhlükəsindən qurtarmış, sonda özü şəhid olmuş döyüşçünü nazirliyin Təltif Komissiyası hansı məntiqlə, ədalətlə medala təqdim etmişdir? Milli Qəhrəman adına təqdim edilən döyüşçünü ordenə də layiq bilmədilər?**

Ancaq nazirliyin Hərbi təltiflər bölməsindən cavab aldım ki, Ziyadov Mehdi Bəhram oğlu 2010-cu ildə "Hərbi xidmətlərə görə" medalı ilə təltif olunmuşdur.

Bu, mənim məktubumun "araşdırılmasının" cavabı idi.

Belə cavabdan sonra Hərbi təltiflər bölməsinə müraciətlə xahiş etdim ki, məktubumla bağlı nazirin fikrini bilmək istəyirəm. Çünki tam əmin idim ki, general-polkovnik Zakir Həsənov belə həssas məsələyə heç vaxt laqeyd qala bilməz. Ancaq ikinci məktubuma heç cavab da vermədilər.

Daha bir neçə ünvana müraciət edərək, cəbhədə həlak olmuş döyüşçünün hünərinə belə saygısız və ədalətsiz münasibətdən narazılığımı bildirdim. Bu dəfə də nazirliyin Hərbi rütbələr və təltiflər şöbəsindən bildirdilər ki, Mehdi Ziyadovla bağlı təltif sənədlərinə nazirliyin Təltif Komissiyasında baxılmış və həmin sənədlər 2010-cu ildə Prezident Administrasiyasına göndərilmişdir. Təqdim olunmuş sənədlər əsasında əsgər Mehdi Bəhram oğlu Ziyadov "Hərbi xidmətlərə görə" medalı ilə təltif edilmişdir.




Deməli, bu məntiqlə yanaşsaq, nazirliyin Təltif Komissiyası hansısa əsgər və ya zabitin konkret olaraq nə ilə təltif edilməsi barədə heç bir təklif vermir, yalnız yuxarı instansiyaya sənəd göndərməklə məşğuldur. Əgər belədirsə, nə üçün Təltif Komissiyası adlanır?

Hesab edirəm ki, əslində belə deyil, sadəcə, həmin Komissiyanın vaxtilə yol verdiyi ədalətsizliyə hansısa şəkildə haqq qazandırmaq istəyirlər. Çünki onların Prezident Administrasiyasına göndərdiyi sənədlərdə təltif barədə konkret təklif olmalıdır. Belə olan halda kimi inandıra bilərlər ki, hərbi hissə komandirinin Milli Qəhrəman adına təqdim etdiyi şəhid döyüşçünü Prezident Administrasiyasında heç olmasa ordenə də layiq bilmədilər? Qətiyyən ola bilməz!

Bu haqsızlığa, ədalətsizliyə son qoyulması düşmənlə üzbəüz döyüşlərdə hünər göstərmiş şəhidin ruhu qarşısında savab, nakam övlad itirmiş valideynlərə böyük təsəlli olardı.

Mən qəzet vasitəsilə hörmətli nazir Zakir Həsənova müraciətlə bu məsələnin araşdırılmasına, Mehdi Ziyadovun döyüşlərdəki igidliyinin layiqincə qiymətləndirilməsinə kömək göstərilməsini xahiş edirəm.

**Bütün şəhidlərimizin ruhu şad olsun!**

**Vaqif MUSAYEV,**
***Əməkdar jurnalist.***